# GENDER İDENTİKLİYİNƏ YENİ BAXIŞ – QLOBAL ÇAĞIRIŞ KİMİ: CƏNUBİ QAFQAZ MEDİA DİSKURSUNDA MƏSƏLƏYƏ MÜNASİBƏT

**Mələk Muxtarova**
Azərbaycan Dillər Universiteti, Bakı, Azərbaycan
malakabbf@gmail.com

Gender identikliyi ilə bağlı son araşdırmalar, eləcə də siyasi korrektəlik doktrinin əsas senzura yönləndiricisi kimi qəbul edilməsi, habelə, ümumi təhsil-məlumatlandırma səviyyəsində inkişaf, mədəni-siyasi əlaqələrin intensivləşməsi – bütün bu sadalanan amillərin gender probleminə daha obyektiv, daha tolerant baxışın formalaşmasına yol açmışdır. Hətta ənənəvi gender stereotipikləşmələri ilə seçilən coğrafi bölgələrdən sayılan Cənubi Qafqazda qeyd olunan proseslərin təsir izləri hiss olunmaqdadır ki, bunun ən bariz nümunəsi kimi, cəmiyyət dəyişimlərini ən operativ şəkildə inikas etdirən media diskursunu nümunə göstərə bilərik.Azərbaycanın, ümumilikdə Cənubi Qafqazın qlobal Dünya reallığının tərkib hissəsi olması XXI yüzillikdə baş verən dinamik dəyişikliklərin, qlobal çağırışların, sivilizasyon katakslizm və yenilənmələrin ölkəmizdə və bütövlükdə bölgəmizdə inikasını qaçınılmaz etmişdir. Belə ki, dünya ölkələri ailəsində öz layiqli yerini tutan ölkəmizdə aparılan balanslaşdırılmış daxili və xarici siyasət həm milli-mədəni dəyərlər sisteminə, dövlətçilik maraqlarına uyğun addımların atılmasını, həm də dünyada cərəyan edən qlobal proseslərlə səsləşən yeniliklərə imza atılmasını mümkün edir. Lakin  həmin balanslaşdırılmış siyasətin ən başlıca məramı, irəlidə də izləyəcəyimiz kimi, qlobal dünya çağırışlara Azərbaycan etno-mental reallıqlarına adekvat şəkildə, milli kimliyə autentik tərzdə qarşılıq verilməsi ilə bağlıdır. Konkret olaraq, bu sırada həm Azərbaycan, həm də bütövlükdə Cənubi Qafqaz regionu üçün yetərincə aktual və bir sıra aspektlərdən problematik, həm bəzi məqamlarda ağrılı olan gender identikliyinə dəyişən münasibət məsələsini qeyd etmək olar. Belə ki, özünün müasir formatında gender problemi XX əsrin 60-cı illərindən etibarən xüsusilə aktual olan feminizm probleminin sərhədlərini aşaraq, XXI əsrin başlanğıcından etibarən, həm də kvir ideologiyasının, fərqli gender identikliyinə malik olan şəxslərə qarşı tolerant münasibət tendensiyasının aktuallaşması ilə səciyyələndirilir. Bu mənada gender identikliyinə münasibətdə yeni formatlı qlobal çağırışların istər Azərbaycan, istərsə də Cənubi Qafqaz mühitinə bu və ya digər səviyyəli təsiri məsələsi və bu təsirin təhlil və dəyərləndirməsi mühüm aktuallıq kəsb etməyə bilməz.

Ümimilikdə, Cənubi Qafqaz regionunda gender probleminin vəziyyəti ilə bağlı qeyd edək ki, təhlilçilər Azərbaycanda qadın-kişi bərabərliyi məsələsində problemlərin tam şəkildə həll qazanmadığına diqqət çəksələr də, məhz, qlobal çağırış zəminində beynəlxalq təşkilatlarla əməkdaşlığın bu yöndə müəyyən addımlar atılmasına kömək etdiyini də qeyd edirlər [1, s.4-6]. Analoji vəziyyətin Gürcüstanda da yer aldığını vurğulayan müşahidəçilər burada da beynəlxalq təşkilatların dəstəyi ilə müvafiq hüquqi, qanun quruculuğu, sosial və s. sahələrlə bağlı tədbirlərin həyata keçirildiyinə diqqət çəkirlər [2, s.2-4]. Bununla belə, beynəlxalq müşahidəçilər bu məsələdə istər Azərbaycanda, istərsə də Gürcüstanda əsaslı irəliləyişlərin olduğunu da vurğulayırlar [6, s.9]. Avropa Şurasının Gender Bərabərliyi Strategiyasının müəyyənləşdirmiş olduğu “Mediada gender stereotipləri və seksizmlə mübarizə” konsepsiyası çərçivəsində ayrı-ayrı dövlətlərin, xüsusilə Avropa ailəsinə nisbətən yaxın keçmişdə addım atmış Cənubi Qafqaz ölkələrinin mediasında gender bərabərliyi məsələlərinin düzgün tənzimlənməsi məsələsinə həssaslıq nümayiş etdirilməkdədir. Bu əsnada Azərbaycan xəbər istehsalçıları üçün tərtib olunmuş

tövsiyyə-rəhbərlikdə gender bərabərliyinin izlənilməsi, media kimi güclü təyziq vasitəsinin, cəmiyyətinin idarə olunması alətinin doğru məcrada, müasir dünya çağırışlarının ortaya qoyduğu tolerantlıq prizmasından yönləndirilməsi israrlı şəkildə təşviq edilir [4].

Apardığımız monitorinq Azərbaycan və Gürcüstan media diskursunda (*Azerbaijan Today, AzerNews, Azerbaijan International, Georgia Today, Georgian Times, Financial*) gender probleminin fəqli aspektləri ilə bağlı aşağıdakı ortaq cəhətlərin müəyyənləşdirilməsinə imkan vermişdir:

1) Gender problemi insan hüquqlarının müdafiəsi kontekstində nəzərdən keçirilir və bu səbəbdən də, "Hüquq və azadlıqlar", "Gender bərabərliyi", "Gender asimmetriyası", "Siyasi islahatlar", "Demokratiya" və s. konseptlərlə əlaqəli zəmində reallaşma sahəsinə malikdir. Məsələn: "*Continued progress towards gender equality is essential for Georgia's democracy, development and EU integration*" [7];

2) Əksər hallarda media diskursunda gender problemi qadının cəmiyyətin müstəqil fərdi kimi fəaliyyətinin təmin olunması prizmasından şərh edilir ki, bu da əlaqəli şəkildə "Qadın haqqları", "Feminizm", "Gender bərabərliyi/bərabərsizliyi", "Müstəqillik", "Maddi təminat", "Özünütəsdiq" və s. bu kimi konseptlər çərçivəsində reallaşmanı mümkün edir. *"Gender Gap in Home Cooking Grows.The patterns in global home-cooking trends have evolved over the years. The persistent gender disparity in cooking remains notable, with women universally taking on more of the cooking responsibility"* [5]; "*Independent and liberated women stand in a totally different and not least stronger position towards their violent spouses then those who are economically and in others ways dependent on their spouse. They can leave*" [9];

3) Bunun davamı olaraq, qadın problemlərinin tərkib hissəsi kimi təhsil və karyera sahələrindəki yetərisizliklə əlaqədə nəzərdən keçilrilən gender problematikası "Təhsil", "Karyera", "İnkişaf/Təkamül" və s. konseptlərlə müştərək şəkildə ifadə tapır. "*In many regions of Azerbaijan, girls drop out of school and prepare for family life after a certain age*" [10, s.4];

4) Davranış patternlərinin, milli stereotiplərin, habelə dini doqmaların təsiri kontekstindən şərh edilən gender problem "Din","Postsovet varisliyi", "Tabular/Öngörüşlər" və s. konseptlərlə ortaq semantik sahədə reallaşır. "*But over time, the attitude of the women of this region could play an important role, especially if outsiders who believe in gender equality and freedom support them despite what might appear to some to be their pro-Soviet attitudes*" [3].

Onu da qeyd etmək istərdik ki, qlobal çağırış kimi dəyişən dünya reallıqlarında gender probleminə yenilənən münasibət Cənubi Qafqaz reagionu ölkələrindən Azərbaycan və Gürcüstanın ingilisdilli mediasının materialına istinadən aparılan təhlil və monitorinq belə nəticəyə gəlməyə imkan verir ki, hər iki dövlətin media diskursunda qadın – kişi bərabərliyi problem daha geniş şəkildə müzakirə edildiyi halda, fərqli gender identikliyinə malik şəxslərin sosial, hüquqi, psixoloji və s. xarakterli problemləri daha az müzakirə edilir. Bu isə ilk növbədə hər iki ölkənin ənənəvi patriarxal dəyərlərə malik olması ilə, habelə tarixən mövcud olan əxlaqi-etik tabular səbəbiylə gender identikliyi fərqli olan insanlara daha fərqli münasibətlə, hətta belə demək olarsa, bir qisim hallarda qeyri-tolerant münasibətlə şərtləndirilir (analoji xarakterli faktlar daha çox sosial mediada izlənilir, bu haqda daha ətraflı bax: [8, s.7-8]). Maraqlıdır ki, Azərbaycan müəllifləri ölkədən kənarda nəşr edilən KİV-lərdə bu problemləri daha açıq şəkildə dilə gətirdikləri halda [10], milli mentallığın stereotipləri səbəbiylə, hətta bəzi hallarda fərqli gender identikliyinə malik şəxslərin cəmiyyətdən təcrid edilməsi ilə qarşılaşması, cəmiyyət qınağı ilə üzləşməsi səbəbiylə yerli mətbuatda bu kimi məsələlər geniş şəkildə işıqlandırılmır. Təsadüfi deyil ki, hər iki ölkə mediasında gender identikliyi fərqli insanlara qarşı diskriminasiya halları etiraf

edilir. Lakin onu da qeyd edək ki, bu kimi hallar özlüyündə qlobal xarakter kəsb edir və digər dünya ölkələrində də, o cümlədən, aparıcı Avropa ölkələrində, ABŞ-da da yer alır. Mediadakı bəzi müzakirələrin homofob mahiyyəti kəsb etdiyi və ənənəvi dəyərlərə sadiqlik fonunda gender identikliyi fərqli olan şəxslərin tənqidə məruz qaldığı bildirilir. Habelə o da vurğulanır ki [11], Cənubi Qafqazda feminizmin daha inklyuziv olmadığı təqdirdə, yəni kvir (dəyişimli) identikliyə malik şəxslərin də hüquqlarının müdafiəsini ehtiva etmədiyi təqdirdə onun (Cənubi Qafqaz feminizm hərəkatının) müvəffəqiyyətli nəticələr əldə edə biləcəyi mümkünsüzdür.

**Açar sözlər:** Gender identikliyi, Cənubi Qafqaz, qloballaşma, feminizm, media diskursu.

## Ədəbiyyat

1. Aliyeva-Gureyeva, Y. (2010). Policy Attitudes towards Women in Azerbaijan: Is Equality Part of the Agenda? Caucasus. Analytical Digest No. 21: Gender Politics in the South Caucasus, 30 November 2010, pp.4-6 https://laender-analysen.de/cad/pdf/CaucasusAnalyticalDigest21.pdf
2. Chkheidze, K. (2010). Gender Politics in Georgia. Caucasus. Analytical Digest No. 21: Gender Politics in the South Caucasus, 30 November, pp.2-4 https://laender-analysen.de/cad/pdf/CaucasusAnalyticalDigest21.pdf
3. Could Central Asian Women Become 'Surrogate Democrats'? (2008). Azerbaijan International. http://azer.com/aiweb/categories/caucasus_crisis/index/cc_articles/goble/goble_2008/goble_1208/goble_1211_women.html
4. Ələsgərli, M., Surcilija Milojevic, Y. (2019). Media və gender bərabərliyi Azərbaycanda xəbər istehsalçıları üçün Bələdçi. Avropa Şurası, 30 s. https://rm.coe.int/guide-on-gender-equality-and-the-media-for-news-producers-in-azerbaija/1680953ebc
5. Gender Gap in Home Cooking Grows (2023) Financial, https://finchannel.com/gender-gap-in-home-cooking-grows/117585/america/2023/11/
6. Gender Statistics in the Southern Caucasus and Central and West Asia A Situational Analysis (2012). GENDER AND DEVELOPMENT / Caucasus, Central and West Asia / 2012, 90, https://www.adb.org/sites/default/files/publication/30048/gender-statistics-southern-caucasus-central-west-asia.pdf
7. Political Forum on Gender Equality Highlights the Need for Equal and Inclusive Political Processes in Georgia. (2023). Georgian Today. https://georgiatoday.ge/political-forum-on-gender-equality-highlights-the-need-for-equal-and-inclusive-political-processes-in-georgia/
8. Universal Periodic Review – Azerbaijan-Fourth Cycle. (6-17 November 2023) Geneva, Switzerland, https://www.upr-info.org/sites/default/files/country-document/2023-11/JS14_UPR44_AZE_E_Main.pdf
9. Women Tend to Have Different Perspectives, other Issues, and other Ways of Working then Men. (2021). Azerbaijan Today. https://www.azerbaijantoday.az/2021/02/18/women-tend-to-have-different-perspectives-other-issues-and-other-ways-of-working-then-men/
10. Zamanov, R. (2011). Feminism in the South Caucasus cannot succeed without queer rights, 11 February, 2011. https://oc-media.org/opinions/opinion-feminism-in-the-south-caucasus-cannot-succeed-without-queer-rights/

## A NEW LOOK AT GENDER IDENTITY AS A GLOBAL CHALLENGE: ATTITUDE TO THE PROBLEM IN THE MEDIA DISCOURSE OF THE SOUTH CAUCASUS

The report analyzes the renewed attitude towards the gender problem in the changing world realities as a global challenge. In particular, the report analyzes the problem of gender identity and the problem of gender equality. The main material of the study is articles from the English-language media of the countries of the South Caucasus region, in particular the English-language media of Azerbaijan and Georgia. Analysis and monitoring (conducted as part of a sociolinguistic study) indicate that, despite the fact that the problem of gender equality is discussed quite thoroughly in the media discourse of both countries, the social, legal and psychological problems of people of a different gender and identity attract much less interest. This is due, first of all, to the fact that in both countries there are traditional patriarchal values, as well as different attitudes towards people with different gender identities due to historically existing moral and ethical taboos, and even in some cases intolerant attitudes. It is interesting that Azerbaijani authors in the media published outside the country more openly express these problems. Perhaps this is primarily due to the fact that the stereotypes of the national mentality towards people from the LGBT community differ from the attitude of many European countries. Since the mentality of both Kafkasian countries does not welcome the presence of this kind of people, even in some cases because of this, people with a different gender identity face isolation from society. This kind of problem is not so often discussed in the local press of both South Caucasian countries. However, the media in both countries are discussing some blatant cases of discrimination against people of different gender identities. However, we also note that such cases are global in nature and occur in other countries of the world, including the leading countries of Europe and the USA.

## 1919-CU İL 23 NOYABR AZƏRBAYCAN-ERMƏNİSTAN SAZİŞİ VƏ ZƏNGƏZUR

**Səkinə Nadirova**
Azərbaycan Universiteti, Bakı, Azərbaycan
sekine.nadirova@mail.ru

Cənubi Qafqazda müstəqil respublikalar yarandıqdan sonra qarşıda ərazi-sərhəd məsələlərinin həll edilməsi dururdu. Tarixə "Tiflis müqaviləsi" kimi düşən 1919-cu il 23 noyabr müqaviləsi həmçinin Azərbaycan Ermənistan arasındakı da ilk müqavilə olaraq da qeyd edilir. Ermənistan istər Azərbaycan, istərsə də Gürcüsana olan ərazi iddialarını etnik-təmizləmə və təcavüzkarlıq siyasəti ilə həyata keçirirdi. Müqavilənin imzalanmasında ABŞ və İngiltərənin xüsusi rolu olmuşdur. ABŞ və İngiltərənin Qafqazdakı nümayəndələri bölgədəki vəziyyətin Paris sülh konfransının fəaliyyətinə maneçilik göstərəcəkləri barədə narahatlıqlarını Azərbaycan və Ermənistan hökümət başçılarına bildirmişdilər. Professor Cəmil Həsənli isə kitabında sazişin imzalanmasını bu cür təsvir edirdi: "Noyabrın 16-da Britaniya Ali Komissarı O. Uordrop Azərbaycan və Ermənistan hökumətlərinə bu məqsədlə teleqram göndərmişdir. Lakin son anda amerikanlar vasitəçilik etdilər. Sazişdə tərəflər təsbit edirdilər ki, hazırda cərəyan edən toqquşmanı dayandırmağa və yenidən silaha əl atmamağa çalışacaqlar" [2].

ABŞ nümayəndəsi C. Rey tərəflər arasında mövcud mübahisəli məsələni dinc yollar ilə həll etmək məqsədi ilə Tiflisdə konfransın keçirilməsini təklif etdi. Noyabrın 21-22-də Azərbaycan tərəfdən ictimai-siyasi xadim Nəsib bəy Yusifbəyli, Ermənistan tərəfdən isə Aleksandr Xatisyanın